**15.02.2024: xəbər**

**Students of Sumgayit "Dunya" school at Khazar University**

On February 7, 2024, students from the 6th, 7th, and 8th IB classes of Sumgayit "Dunya" School, accompanied by their class leaders and biology teachers, paid a visit to Khazar University. The university's Rector, Assoc. Prof. Irada Khalilova, warmly welcomed the students, providing them with an overview of the university and emphasizing the significance of higher education.

During the visit, the students had the opportunity to meet with faculty members from the Department of Life Sciences and tour the Cell Pathology Research Center. At the research center, the students received information on safety protocols, laboratory equipment, and ongoing research activities.

Elvin Alizadeh, a first-year student actively involved in Dr. Elshan Abdullayev's scientific research project at the Petroleum Engineering Department, shared insights with the students regarding the investigation into potential life on Mars. Alizadeh also visually demonstrated the functioning of the Ph meter device, illustrating its principle of operation to the visiting students.

Dr. Jamala Eldarova, Head of the Department of Life Sciences, and Associate Professor Javid Ojagi shared interesting insights into wheat, one of the most vital food plants, along with molecular biological research conducted on it. Additionally, Assoc. Prof. Gulbeniz Gasimova, a faculty member of the department, demonstrated a light microscope to the students. She showcased a preparation derived from a turtle's pelvis and accurately determined the age of a land turtle by examining the rings on its scales. Moreover, erythrocytes in a blood sample were observed through the microscope. These experiments captivated the students, eliciting numerous questions that were thoughtfully addressed by the teachers.

**Sumqayıt “Dünya” məktəbinin şagirdləri Xəzər Universitetində**

2024-cü il fevralın 7-də Sumqayıt “Dünya” məktəbinin 6,7 və 8-ci IB sinif şagirdləri, sinif rəhbərləri və biologiya müəllimləri ilə birlikdə Xəzər Universitetində olmuşlar. Universitetin rektoru Dos. İradə Xəlilova şagirdləri qəbul etmiş, universitet haqqında məlumat verərək, ali təhsilin önəmindən danışmışdır.

Şagirdlər Həyat elmləri departamentinin müəllimləri ilə görüşmüş və Hüceyrə Patologiyası Tədqiqat Mərkəzində olmuşlar. Burada şagirdlərə laboratoriyada təhlükəsizlik qaydaları, avadanlıqlar və görülən işlər haqqında məlumat verilmişdir.

Neft mühəndisliyi departamentinin müdiri Dr. Elşən Abdullayevin elmi-tədqiqat layihəsində icraçı kimi çalışmağa başlayan 1-ci kurs tələbəsi Elvin Əlizadə şagirdlərə Marsda həyatın mövcudluğunun araşdırılması haqqında danışmış, Ph metr cihazının iş prinsipini əyani olaraq nümayiş etdirmişdir.

Həyat elmləri departamentinin müdiri Dr. Cəmalə Eldarova və departamentin dosenti Cavid Ocaqi ən əhəmiyyətli ərzaq bitkisi olan buğda və onunla bağlı aparılan molekulyar bioloji tədqiqatlar haqqında maraqlı məlumatlar vermişlər. Həmçinin, departamentin müəllimi Dos. Gülbəniz Qasımova şagirdləri işıq mikroskopu ilə tanış etmiş, tısbağanın çanağından hazırlanmış preparatı nümayiş etdirmiş, pulcuğu üzərində müşahidə olunan halqalar əsasında quru tısbağasının yaşını təyin etmişlər. Mikroskop vasitəsilə qan preparatında eritrositlər də müşahidə olunmuşdur.

Bütün təcrübələr şagirdlərin böyük marağına səbəb olmuş və onların çoxsaylı sualları müəllimlər tərəfindən cavablandırılmışdır.


Khazar
University







